Noyabr 2016

# PwC Azerbaijan Times

## 33 saylı Buraxılış

### Buraxılışın əsas xəbərləri:

- **"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilmişdir**
- **Miqrasiya Məcəlləsində dəyişiklik edilmişdir**
- **Bazar araşdırmasının həyata keçirilməsi üçün kadrların seçilməsinə dair qaydalar təsdiq edilmişdir**



pwc

Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2016 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilmişdir*

Azərbaycan Respublikasında müvəqqəti olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxs yol hərəkətinin tənzimlənməsi sahəsində xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş sürücülük vəsiqəsi əsasında Azərbaycan Respublikası ərazisində nəqliyyat vasitələrini idarə etmək hüququna malikdir. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə aldıqda, ölkə ərazisində nəqliyyat vasitələrini idarə etmək üçün sürücülük vəsiqəsini həmin icazəni aldığı gündən bir ay müddətində müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada dəyişdirməlidir.

### *Miqrasiya Məcəlləsində dəyişiklik edilmişdir*

Dəyişikliyə əsasən, elektron vizanın verilməsi ilə bağlı müraciət qəbul edildikdən sonra ən geci 3 (üç) iş günü müddətində "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin məhdudiyyət siyahıları üzrə yoxlama aparılır, imtina üçün əsas olmadıqda viza rəsmiləşdirilərək müraciət etmiş şəxsin elektron poçt ünvanına göndərilir. Viza verilməsindən imtina edildikdə, müraciət etmiş şəxsin elektron poçt ünvanına bu barədə məlumat göndərilir.

### *Bazar araşdırmasının həyata keçirilməsi üçün kadrların seçilməsinə dair qaydalar təsdiq edilmişdir*

Bazar araşdırmasının həyata keçirilməsi üçün ixtisaslaşmış yerli və xarici hüquqi və fiziki şəxslərin seçilməsi ilə bağlı müsabiqənin təşkili və keçirilmə Qaydası təsdiq edilmişdir. Qaydaya əsasən, müsabiqə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən həyata keçirilməlidir.